# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## İqtisadiyyat İnstitutu

https://economics.org.az/

İqtisadiyyat İnstitutu əvvəllər SSRİ EA-nın Azərbaycan filialı nəzdində 1935-ci ildə təşkil edilmiş İqtisadiyyat və Coğrafiya sektorunun, 1945-ci ildən isə Azərbaycan EA-nın nəzdində fəaliyyət göstərmiş İqtisadiyyat sektorunun bazası əsasında 14 aprel 1958-ci il tarixində Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə yaradılmışdır. 2019-cu ildən etibarən aprelin 14-ü AMEA İqtisadiyyat İnstitutunda "İnstitut Günü" kimi qeyd olunur.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən İqtisadiyyat İnstitutu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru professor Nazim İmanov.

**İnstitutun əsas elmi istiqamətləri:**

İnstitutu öz tədqiqatlarında Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının, strategiya və konsepsiyaların qarşıya qoyduğu məqsəd və vəzifələri əsas tutur.

**Nəşr edilən elmi jurnallar:**

"İqtisadi artım və ictimai rifah" jurnalı

(print ISSN 2707-9309; online ISSN 2707-9317)

**İnstitutun tərkibində fəaliyyət göstərən müdafiə şurası:**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi **ED 1.10** olan Dissertasiya şurası fəaliyyət göstərir.

**Elm Sahəsinin adı: İqtisad elmləri**

5312.01 – Sahə iqtisadiyyatı

5308.01 – Ümumi iqtisadiyyat

5307.01 – İqtisadi nəzəriyyə

**Şöbə və laboratoriyalar:**

1. Biznes mühitinin tənzimlənməsi və sahibkarlığın inkişafı şöbəsi.
2. Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri şöbəsi.
3. Demoqrafiya və məşğulluq problemləri şöbəsi.
4. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi şöbəsi.
5. Post-konflikt ərazilərin bərpası Elmi mərkəzi.
6. İnklüziv sosial inkişaf şöbəsi.
7. İnnovativ iqtisadiyyat və rəqəmsal transformasiya şöbəsi.
8. İqtisadi siyasətin nəzəri əsasları şöbəsi.
9. Xidmət sferasının iqtisadiyyatı şöbəsi.
10. Monetar və fiskal tənzimləmə problemləri şöbəsi.
11. Sənaye siyasəti və investisiya problemləri şöbəsi.
12. İqtisadi tədqiqatların riyazi təminatı şöbəsi.
13. Aqrar sektorun iqtisadi problemləri şöbəsi.

## STATİSTİK MƏLUMATLAR

## İqtisadiyyat İnstitutu

